Gənclər Günü qeyd olundu

Gənclər ölkəmizin gələcəyi naminə inkişafın və modernləşmənin ön sıralarındadırlar

Fevralın 2-də rayon gənclər və idman idarəsi Qəbələ Mədəniyyət Mərkəzində Gənclər Günü ilə əlaqədar toplantı keçirdi. Toplantıya şəhər, qəsəbə və kəndlərdə, təhsil, səhiyyə və mədəniyyət ocaqlarında, gənclər və idman təşkilatlarında fəallıq göstərən gənclər dəvət olunmuşdular.

Tədbirdə rayon icra hakimiyyətinin məsul işçisi Tural Bağırov iştirak edirdi.

Tədbiri giriş sözü ilə gənclər və idman idarəsinin baş məsləhətçisi Məhəmmədəli Səfərçinov açmış, toplantı iştirakçılarını idarə rəhbərliyi adından Gənclər Günü münasibətilə təbrik etmiş, gənclərimizə müstəqil Azərbaycanda qazanılan uğurlarda daha fəal iştirak etməyi arzulamışdır. Sonra söz gənclər idman idarəsinin aparıcı məsləhətçisi Mübariz Ağayevə verilmişdir.

M. Ağayev «Uğurlu inkişafa aparan gənclər siyasəti» mövzusunda geniş məruzə etmişdir.

Məruzə ətrafında YAP Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin sədri Namiq Ağayev, Qəbələ Peşə Məktəbinin müəllimi Əfsanə Xəlilova, şəhər 3 saylı tam orta məktəbin müəllimi Gülnar Eyvazlı çıxış etmişlər. İstər məruzəçi, istərsə də çıxış edənlər hələ 1995-ci ildən Azərbaycan gənclərinin milli ruhda böyüməsi və ölkədə layiqli vətəndaş kimi yetişməsi üçün konturları müəyyən etmək məqsədilə ulu öndər Heydər Əliyevin gənclərin I forumunun keçirilməsi təşəbbüsündən başlamış (bu forum 2 fevral 1996-cı ildə keçirilmişdir) ta bugünə qədər gənclərə göstərilən dövlət qayğısından söhbət açmışlar. O vaxtlar Heydər Əliyevin "biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacağıq, onların imkanlarından maksimum istifadə edəcəyik" fikri ölkə gəncləri qarşısında geniş imkanlar açdı. Ötən 20 il ərzində bu fikir artıq həyatda öz reallığını tapmışdır.

Ölkəyə rəhbərlik etdiyi dövrdə cənab İlham Əliyev gənclərə yüksək qayğı göstərmiş, gənclər siyasətinin uğurla davam etdirilməsi üçün bir sıra fərman və sərəncamlar imzalamışdır. 26 yanvar 2015-ci ildə imzaladığı "2015—2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf Strategiyası" isə Azərbaycan gənclərinin yeni mərhələyə qədəm qoyması üçün çox mühüm sənəd oldu. Strategiyanın əsas qayəsi isə yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdan ibarətdir.

Məruzə və çıxışlarda Qəbələ gənclərinin də bu siyasətin həyata keçirilməsində göstərdikləri fəallıqla bağlı bir çox faktlar söylənildi. Nəticə isə bu oldu ki, respublika gənclərinin bir qolu kimi Qəbələ gəncləri də ölkəmizin nümunəvi gələcəyi naminə inkişafın və modernləşmənin ön sıralarındadırlar.

Sonra rayon icra hakimiyyətinin məsul işçisi Tural Bağırov icra hakimiyyətinin rəhbərliyi adından Gənclər Günü münasibətilə toplantı iştirakçılarını və onların şəxsində rayonun bütün gənclərini təbrik etdi.

Tədbirdə respublika, rayon tədbirlərində fəal iştirak edən bir qrup gənc gənclər və idman idarəsinin fəxri fərmanları və xatirə hədiyyələri ilə mükafatlandırıldılar.

Nadir ATAKİŞİYEV.
Foto İlkin Vəlizadənindir.

2016-cı ilin "Multikulturalizm ili" elan olunması dünyaya bir mesaj, alternativi olmayan sülh çağırışıdır

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi dünya ölkələrinin Azərbaycandakı multikulturial mühitə olan münasibətinin real ifadəsidir. Beynəlxalq təşkilatın bu qərarı Azərbaycana verilən böyük qiymət, xalqımız üçün böyük şərəfdir.

Həqiqətən də xalqımız sivilizasiyalar arası dialoqun genişlənməsi üçün əsrlər boyu əlindən gələni etmiş və hazırda da etməkdədir. Lakin əfsuslar olsun ki, dünyanın qloballaşdığı zamanda bu iş mürəkkəbləşir və daha da çətinləşir. Hazırki zəmanəmizdə sivilaziyalararası, dinlərarası, anlaşılmazlıqlar, inamsızlıqlar və toqquşmalar görürük. Belə şərait isə özgə dərmanına su tökmək istəyən qüvvələrin işini asanlaşdırır və həqiqətin əksinə təbliğat aparırlar. Bütün bunlar Azərbaycan xalqına həmişə yad xüsusiyyətlər olmuşdur. Əlbəttə, biz istərdik ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər və başa düşsünlər ki, dinlərarası münaqişə həmişə fəlakət gətirib. Müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə normal qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər. Necə ki, Azərbaycanda yaşayırlar. Əlbəttə, biz bundan sonra da çalışmalıyıq ki, ölkə daxilində bütün bu məsələlər sağlam zəmində öz həllini tapsın.

Odur ki, ölkə başçısı cənab İlham Əliyev Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə xüsusi sərəncam vermiş və 2016-cı ili "Multikulturalizm ili" elan etmişdir. Qeyd etmək lazımdır ki, əvvəllər də Azərbaycan multikulturalizmizlə bağlı çox böyük işlər görüb. Beynəlxalq miqyasda Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm Azərbaycanda yaşayır. Qərb siyasətçiləri isə bunun əksinə olaraq multikulturalizmin iflasa uğradığını sübut etməyə çalışırlar. Onlar unudurlar ki, Azərbaycanda multikulturalizm həyat tərzidir, cəmiyyətin sosial, mədəni münasibətlər sisteminin daxili təbii tələbatının tərkib hissəsidir. Bu cür mədəni və zəngin keçmiş irsə malik xalqımız müasir cəmiyyətimizin multikultural və tolerant keyfiyyətlərini özündə əks etdirməlidir və edir də. Həmçinin ümumilikdə cəmiyyətimizdə kütləvi sosial fəlsəfənin və təfəkkürün Azərbaycan modelini yaradır.

Dini dəyərlərin etnik toqquşmaların, qarşıdurmaların münaqişə vasitəsinə çevrildiyi, etnik, dini və mədəni, hətta məzhəb fərqlərinə görə insanların bir-birini öldürdüyü bir vaxtda cənab Prezident İlham Əliyevin imzaladığı bu sərəncam dünyaya bir mesajdır. Bütün xalqların sülhə çağırışıdır.

Araşdırmalar göstərir ki, hələ 2008-ci ildən başlayaraq Azərbaycanda coğrafi, tarixi, həm də mədəni əsaslara malik olan multikulturalizmi inkişaf etdirmək sahəsində xeyli işlər görülmüşdür.

Belə ki, Azərbaycanın 2009-cu ildə Bakıda İslam Əməkdaşlığı Təşkilatı Ölkələrinin mədəniyyət nazirlərinin toplantısına, 2011-ci ilin aprel ayında Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, 2015-ci ildə Birinci Avropa Oyunlarına və bir sıra bu məzmunda beynəlxalq tədbirlərə çox yaxşı səviyyədə ev sahibliyi etməsi sübut edir ki, multikulturalizm həqiqətən də bizim həyat devizimizdir.

Avropanın 50 milli Olimpiya Komitəsini birləşdirən bu oyunlarda dünyanın 50 ölkəsindən 20 idman növü üzrə 6000 mindən çox idmançı yarışmışdır.

Tədbirin açılışında iştirak edən bütün dövlət rəhbərlərinə, yarışlarda irqindən, millivətindən, siyasi əqidəsindən və təmsil etdiyi ölkənin Azərbaycana olan münasibətindən asılı olmayaraq bütün idmançılara göstərilən isti münasibət, onlar üçün yaradılmış şərait Azərbaycanın bu sahədə nəyə qadir olduğunu bir daha dünyaya nümayiş etdirmişdir.

Bu tədbirlərin belə yüksək möhtəşəm keçirilməsi İslam Avropa mədəniyyətini özündə tərənnüm edən Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə təbliğ edilməsinə istiqamətləndirilmişdir. Xalqımız bu ənənələri istər dövlət, istərsə də vətəndaş cəmiyyəti çərçivəsində davam etdirir.

Cənab Prezidentin sərəncamından göründüyü kimi bu işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün bir sıra aidiyyatı dövlət qurumları cəlb olunmuşdur. Belə ki, Dövlət başçısı tərəfindən Respublika Nazirlər Kabinetinə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə, Mədəniyyət və Turizm, Təhsil Nazirliklərinə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Milli Elmlər Akademiyasına bu məsələ ilə əlaqədar tədbirlər planının hazırlanması üçün bir ay vaxt verilmişdir.

Əminliklə deyə bilərik ki, bu beynəlxalq tədbir də çox müvəffəqiyyətlə başa vurulacaq. Respublikamızın beynəlxalq aləmdə bəşəri dəyərlərə olan hörmət və münasibəti bir daha nümayiş olunacaq.

Fərman HACIYEV,
DİİXİHİ Qəbələ Rayon Komitəsinin sədri,
Azərbaycan Respublikasının əmək veteranı.

Generalın doğum günündə

Şərqin ilk generalı, realist Azərbaycan hekayə janrının əsasını qoyanlardan biri (əslində birincisi) olan (« Rəşid bəy və Səadət xanım» hekayəsi ilə) həmyerlimiz yazıçı « Miskin» təxəllüsü ilə gözəl şeirlər yazan şair, «Səfərnamə» əsərini yazan coğrafiyaçı, səyyah Hacı İsmayıl bəy Hacı Nəsrulla oğlu Qutqaşınlının doğum gününü hər il Qəbələ ziyalıları bir yerə toplaşaraq onun qəbrini ziyarət edirlər.

Bu il də yanvar ayının 27-də qarlı, şaxtalı qış günündə ziyalılar bir yerə toplaşmağa müvəffəq oldular. Bu ilki toplantı rayon mərkəzi kitabxanasında baş tutdu. Əməkdar müəllim Fərman Əzizli toplantını açıq elan edərək öz fikirlərini söylədi. O, həmyerlimizin fəaliyyətindən söhbət açdı. Toplantıda kitabxananın müdiri Ramiz Mirzəyev və digər işçilər də iştirak edirdilər.

Ədibə həsr olunan toplantıda Qafqaz Qaraçaylı, Cəlil Komradlı (Dizaxlı kəndi), Əhməd Məmmədli (Nic qəsəbəsi), Mirhəsən Ağayev (Mirzəbəyli kəndi), Elçin Dönməz (Qəbələ şəhəri) və bu sətirlərin müəllifi çıxış edərək generalın fəaliyyətindən söhbət açmış, ona həsr olunmuş şeirləri oxumuşlar. Onlar ədibin xatirəsinin əbədi olaraq ürəklərdə olduğunu bildirmişlər. Toplantı iştirakçıların qəlbində silinməz bir iz salmışdır. Sonda iştirakçılar ədibin abidəsi önündə xatirə şəkli çəkdirmişlər.

Emin BARATOĞLU.